*Aidə Müseyibova. Tariximiz və abidələrimiz xalqımızın sərvətidir // Əlyazmalar yanmır, 2018, № 2 (7), s.155-159.*

UOT: 94

**Aidə Müseyibova**
*kiçik elmi işçi*
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu,*
*Bakı şəhəri, İstiqlaliyyət küçəsi 26.*
*aida.museyibova@mail.ru*

# TARİXİMİZ VƏ ABİDƏLƏRİMİZ XALQIMIZIN SƏRVƏTİDİR

**Açar sözlər:** *Azərbaycan, xalq, tarix, abidələr, memarlıq*
**Ключевые слова:** *Азербайджан, народ, история, памятники, архитектура*
**Key words:** *Azerbaijan, people, history, monuments, architecture*

*İnsanın yaratdığı abidələr, yaşadığı yerlər zahirən dilsiz olsa da, mövcud durumu ilə bizlərə çox şey söyləyir. Zəngin müşahidə qabiliyyəti və mütəxəssisin gözü isə bu abidələrdən çox sirləri oxuya bilər. Abidələr və tarixi yerlər öz görkəmləri ilə xalqlara hər an kimliyini, nəyə qadir olduğunu xatırladır, vətən sevgisi və ona sadiqlik kimi ülvi hissləri aşılayır. Xalqın mənəvi xəzinəsinin, "mən"inin cəmləşdiyi bu maddiyyat insanlara ulu əcdadlarından danışır, milli özünüdərkin formalaşmasında mühüm rol oynayır. Abidələrin və tarixi yerlərin dağıdılması xalqın, millətin varlığının məhvi deməkdir. Abidələr və tarixi yerlərimizin məhv olmaq təhlükəsi ölkəmizin bəzi bölgələrindən yan ötməmişdir. Torpaqlarımızın 20 faizini işğal etmiş Ermənistanın hərbi birləşmələri milli mədəniyyət abidələrimizi qəddarcasına dağıtmışlar. Erməni terrorçuları tərəfindən zəbt olunmuş qədim Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli - 6 memarlıq və 7 arxeoloji, 292 ölkə, 330 yerli əhəmiyyətli memarlıq, arxeoloji, bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi qalmışdır. Həmçinin bu ərazilərdə 40 mindən artıq əşyanın toplandığı 22 muzey, yüzlərlə mədəni-maarif müəssisələri də düşmən tapdağı altındadır. 18 aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günüdür.(2səh13)*

Azərbaycaının şimal-qərb hissəsində, Qaxdan 12 km aralı Ləkit kəndi yaxınlığında dağlar döşündə dairəvi formalı qədim bir məbədinxərabələri qalmaqdadır.

Ləkit məbədinin memarlıq xüsisiyyətləri və onun qafqazın eyni tipi başqa abidələrlə müqayisə edilməsi, həmin tikintinin VI-VIIəsrlərə aid olduğunu söyləməyə imkan verir.

Naxçıvan MSSR noraşen kəndi yaxınlığında, Səmkir rayonu və Azərbaycanın bir sıra cənub qərb rayonlarında tunc və ilk dəmir dövründən qalmış " siglop" tikintiləri adlanan abidələr vardır.Bunlara bəzən " səngər"," hörükdaş ", "qalaça vəs də deyilir. (3 səh19)

**Azıx mağarası:** Mağara Azərbaycanın Xocavənd rayonu ərazisindədir. Təəssüflə qeyd etmək lazımdır ki, vaxtilə dünyanın ən qədim insanlarının yaşadığı bu mağaranın yerləşdiyi Azərbaycan torpağı 1993-cü ildən etibarən erməni işğalı altındadır və mağaranın işğaldan sonraki vəziyyəti haqqında heç bir məlumat yoxdur.Azıx mağarasının sahəsi 800 kv km-dir. Burada uzunluğu 600 metrə qədər uzanan 8 dəhliz vardır. Dəhlizlərin bəzilərinin hündürlüyü 20-25 metrə qədərdir. Azıx mağarası Qafqazda indiyə qədər aşkar edilmiş mağaralardan ən böyüyü kimi də diqqəti cəlb edir.(3səh.45 )Azıx mağarası haqqında dünya çox az məlumata malikdir. Çünki keçmiş SSRİ dövründə bu mağarada axtarış aparan, onun tarixi barəsində danışan alimlərin xarici ölkələrdə yaşayan həmkarları ilə əlaqə yaratmasına imkan verilməmişdir. Bunun nəticəsidir ki, dünyanın ən qədim insanlarından birinin Azərbaycan ərazisində

yaşadığı haqqında dünya hələ də çox az şey bilir.1960-cı ildə Azərbaycan arxeoloqu Məmmədəli Hüseynovun rəhbərlik etdiyi ekspedisiya Azıx mağarasını kəşf etdi. Aydın oldu ki, mağara dünyanın ən qədim sakinlərinin (onları Azıxantrop adlandırırlar) yaşayış məskəni olub. 1968-ci ildə M.Hüseynovun uzun zamandan bəri Azıx mağarasında apardığı qazıntıların nəticəsi olaraq Neandertal tipə məxsus olan bir insanın alt çənə sümüyü aşka edildi. Tapıntı üzərində aparılan tədqiqatlardan sonra məlum oldu ki, onun ən azı 350-400 min illik bir tarixi vardır.Azərbaycanın Qarabağ bölgəsi dünyanın ən qədim insan məskənlərindən biri - 2 mln il yaşı olan Azıx düşərgəsi insanlarının yaşadığı ərazidir. Qarabağ ərazisi paleolit dövrünün Quruçay mədəniyyəti yaradıcılarının Tunc və Dəmir dövründə mövcud olan və bir-birini əvəz edən Kür-Araz və Xocalı-Gədəbəy mədəniyyətlərinin davamçılarının yaşayış məskənidir. Qarabağın dağlıq və düzən hissəsində aşkar edilmiş qədim daş abidələr-Xocalıdakı Xankəndindəki kromlexlər, eləcə də qarabağın müxtəlif yerlərindən aşkar edilmiş antik dövrə aid daş qutu qəbirlər həmin dövrün ideologiyasını-demen mənəvi düşüncə əks etdirən maddi mədəniyyət nişanələridir. Qarabağ ərazisində müxtəlif dinlərin mövcud olması insan cəmiyyətinin ictimai həyatına böyük təsir göstərmişdir. Azərbaycanın hər yerində olduğu kimi Qarabağda da xristianlıq və müsəlmanlığın mövcud olması və biri digərini əvəz etməsi tikinti mədəniyyətində özünü göstərmişdir. Qarabağ ərazisində (Dağlıq Qarabağda Amaras, Ağdamda Govurqala, Kəlbəcərdə Xocəvəng, Laçında Ağoğlan) və Albaniyanın digər yerlərində (Qax rayonu Qum kəndi, Qəbələ rayonu böyük Əmidli kəndi, Mingəçevir) xeyli alban xristian avidəsi inşa edilmişdir.(3 səh.28)

XI-XII əsrlərdə memarlığın əsas istiqamətlərini əks etdirən Şirvan-Abşeron, Naxçıvan-Marağa məktəblərinin geniş yayıldığı dövrdə Arran(Qarabağ) memarlıq məktəbi də orta əsr Azərbaycan memarlığının sonrakı inkişafını müəyyənləşdirmişdir. Memarlıq və şəhərsalma, dekarativ-tətbiqi sənət sahələri inkişaf etməyə başlamış, epiqrafik abidələr də çoxalmışdır. Qarabağ zonasında çoxu müsəlman dövrünə aid olan 2000–dən artıq müxtəlif tarixi və mədəni abidələr qeydə alınmışdır. Bunların arasında yaşayış evləri, ictimai binalar, həmçinin dini tikililər, ziyarət yerləri vardır.1983-cü ildən YUNESKO-nun təşəbbüsü ilə keçirilən Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü Azərbaycanda da hər il qeyd olunur. Azərbaycanın cənub-qərbindəki Kiçik Qafqaz sıra dağlarinin cənub-şərq yamacında Quruçay çayının sol sahilində yerləşir.(2 səh.3)

Belə ki, işğal altında qalan maddi-mədəniyyət abidələrimiz tamamilə və qəddarlıqla məhv edilmişdir. Ələ keçirilən ərazilərdə ermənilər 12 muzeyi və 6 rəsm qalereyasını, tarixi əhəmiyyətli 9 sarayı qarət edərək yandırmışlar. Nadir əhəmiyyətə malik 40 min eksponat talan olunmuş, 44 məbəd və 18 məscid təhqir edilmişdir. Dağıdılan və yandırılan 927 kitabxanada 4 milyon 600 min nüsxə kitab və nadir incilərdən sayılan əlyazmaların külü göyə sovrulmuşdur. Dağlıq Qarabağ ərazisində və ətraf rayonlarda Azərbaycanın milli-mədəniyyət ocaqlarına erməni təcavüzkarları tərəfindən vurulan ziyanı dəqiq hesablamaq mümkün deyil, çünki zaman dəyişmiş, qiymətlər yenidən formalaşmışdır. Eyni zamanda talan və məhv edilmiş sərvətlər nəinki Azərbaycanın, həm də dünya sivilizasiyasının misilsiz mədəniyyət nümunələri hesab olunmuşdur. Əhaliyə vurulmuş mənəvi-psixoloji zərbə ilə bərabər, ilkin və sonadək müəyyənləşdirilməmiş məlumatlara əsasən, Azərbaycan iqtisadiyyatına 60 milyard ABŞ dollarından çox ziyan dəymişdir.

**Möminə xatun türbəsi** -Məşhur Azərbaycan memarı Əcəmi Naxçıvaninin şah əsəri və Naxçıvan-Marağa memarlıq məktəbinin ən dəyərli abidələrindən biri. Naxçıvan şəhərinin tarixi mərkəzində Atabəylər Memarlıq Kompleksinin tərkibində yerləşir. Möminə xatun türbəsi həmin kompleksdən dövrümüzə çatmış yeganə abidədir.Türbənin uca gövdəsini yuxarıda qapayan yazıda – abidənin baş kitabəsində yazılmışdır: "...bu türbəni dünyanın elmli, dil Məliki, böyük qalib Şəmsəddin Nüsrət əl İslam və əl müslimin Cahan Pəhləvan atabəy Əbu Cəfər Məhəmməd ibn Atabəy Eldəgiz ...dünyanın və dinin cəlalı, islamın və müsəlmanların namusu Möminə xatunun xatirəsinə tikməyi əmr etdi!..."(3 səh 445)

**Xudafərin körpüləri**

Tarixən Azərbaycanın quzeyi ilə güneyini birləşdirən, hazırda ermənilər tərəfindən işğal edilən Cəbrayıl rayonu ərazisində yerləşir. Xudafərin Azərbaycan memarlıq sənəti tarixinin bəzəyi sayılan möhtəşəm tarixi abidələrindəndir. Araz çayı üzərində salınan iki Xudafərin körpüsü məlumdur. Onlardan birincisi "Baş Xudafərin körpüsü" adlanır, uzunluğu 130, eni 6, hündürlüyü isə 12 metrdir. İkinci körpü isə 15 aşırımlı olmaqla uzunluğu 200, eni 4,5 metr, hündürlüyü 10 metrdir. Baş Xudafərin körpüsünün daha qədim olması ehtimal edilir. Belə ki, bu körpünün Əhəməni imperiyası zamanında ağacdan tikilməsi və Eldəgizlər dövləti zamanında isə daş və kərpiclə üzləndiyi güman edilir. H. Qəzvini yazır ki, Xudafərin körpüsü Məhəmməd peyğəmbərin yaxın adamı olan Bəkir ibn Abdulla tərəfindən miladi tarixlə 736-cı ildə inşa etdirilib. Xudafərin körpüsünün Makedoniyalı İsgəndər, ya da Roma sərkərdəsi Pompey tərəfindən tikilməsi barədə də fərziyyələr irəli sürənlər var.Bu körpünün Hindistandan başlayaraq Yaxın və Orta Şərq ölkələri, Rusiya və Qərbi Avropa ölkələri arasında Azərbaycanın iqtisadi və mədəni əlaqələrinin inkişafında böyük əhəmiyyəti olub. Şeyx Babi türbəsi yerli əhalinin ziyarətgahı olub Tarix Şeyx Babı abidəsi Azərbaycan memarlığının XIII-XIV əsrə aid ən möhtəşəm abidələrindən biridir. (1,səh25) Azərbaycan qədim zamanlardan öz ərənləri və tarixi şəxsiyyətləri ilə fəxr edib. Bu səxavətli torpaq bir çox mütəfəkkirlərin, filosof, alim, şair, memar, musiqiçi və rəssamların beşiyidir. Əfsuslar olsun ki, onlardan bəziləri haqqında yetərincə məlumat yoxdur. Füzuli rayonunun Babı kəndi ərazisində səkkizguşəli məqbərə, yarıya qədər uçmuş minarə, digər binaların qalıqları və böyük qəbiristanlıq var. Həmin müqəddəs memarlıq abidəsi illər boyu yerli əhalinin ziyarətgahı olub. Orada xalq arasında böyük nüfuz qazanmış və 700 il bundan əvvəl vəfat etmiş Azərbaycan alimi Şeyx Babı dəfn olunub. Kəndin Bərdə-Gəncə-Şəmkir-Tiflisdən keçən karvan yolu üzərində yerləşməsi onun sufilərin iqtisadi-siyasi və sosial-mədəni həyatında çox mühüm rol oynadığını sübut edir. Onun Arranda fəaliyyət göstərmiş müridləri ilə əlaqə saxlamış Elxani hökmdarları haqqında Rəşid əd-Din yazır ki, Sultan Əhməd Hülakü xanın Kutiy Xatundan olan 7-ci oğlu Təkudar Şeyx Babi Yaqubun müridlərinə çox hörmət edirdi. Rəşidəddin 1282-1284-cü il hadisələrindən bəhs edərkən göstərir ki, Sultan Əhmədin qardaşı Arqun onun əleyhinə çıxış edəndə Sultan Şeyx Babı Yaqub və müridlərindən kömək istəmişdi. Onun misal gətirdiyi mənzum parçalardan aydın olur ki, Şeyx Babi Yaqub vəfatından sonra da müridləri onun işini davam etdiriblər. «Bu müqəddəs məqbərənin zahid, kamil Şeyx Babı Yaqub ibn İsmayıl Qur Xər üçün tikilməsi 672-ci ildə əmr olunmuşdur. Yer üzərində nə varsa, məhv olacaqdır». Həmin yazının ikinci sətri müqəddəs kitabımız Qurani-Kərimin 55-ci surəsinin 26-cı ayəsi ilə üst-üstə düşür. Bir məqamı da qeyd edək ki, zahid sufilikdə ən yüksək dərəcə hesab olunur və kamil şeyxliyi bildirir. Rəvayətə görə, şeyxin cənazəsi daş qutuda, türbənin cənub pəncərəsi önündə dəfn olunmuşdur. Məzar günümüzədək gəlib çıxmamışdır. Amma 1939-1940-cı illərdə türbədə aparılmış ilkin axtarışlar zamanı daş qutunun parçaları tapılmışdı. Şeyx Babı xanəgahında aparılan qazıntılar nəticəsində 2 türbə qalığı, 9 qəbir, 1 yeraltı məqbərə, xanəgahın qərb və şimal mühafizə divarları və şimal giriş zalının qalıqları aşkar edilmişdir. İctimai tikilinin cənub-şərqində səkkizguşəli türbə yerləşir. Türbənin uzunluğu 6,2 m, eni isə 3,8 m-dir. Bu türbə həm ölçülərinə, həm də formasına görə Şeyx Babı türbəsini xatırladır. Türbənin inşasında əhəngdaşı və bişmiş kərpicdən istifadə olunmuşdur. Türbədə iki qəbir aşkar olunub ki, bunların birində kişi, digərində qadın dəfn edilib.(4,səh.59)

Memarlıq, musiqi, XVI-XVII əsrin əvvələrində Azərbaycanda xeyli binalar karvan sara, hamam, ovdan körpü, məqbərə və məscidlər tikildi. Bunlardan 1544 –cü ildə Qusar rayonunun Həzrə kəndində tikilən Şeyx Cüneyd, Naxçıvanda Əlincə çayı üzərində tikilmiş körpünü, Bakının şərq darvazasını, Ərdəbil və Təbrizdəki bir sıra abidələri göstərmək olar. İntihab dövründə Azərbaycan memarlığının nadir inciləri yaranırdı. (1,səh.163)

**Tikinti işi və incəsənət**. IX-XII əsrlərdə memarlıq sahəsində intibah baş verdi. Bu zaman Azərbaycan dünya memarlığının nadir inciləri yaranırdı. XII əsrdə yaşamış Əcəmi Əbu

Bəkir oğlu idi. O, Azərbaycan Eldəgizləri dövlətinn paytaxtı Naxçıvanda Yusif İbn Küseyr türbəsi (1162) Möminə xatun türbəsi (1186), Qoşa minarə(1187) və başqa nadir memarlıq abidələri ucaltmışdı. (4, səh.62)

İntibah memarlığınınən möhtəşəm abidələrindən biri Şəddabi Fəzli İbn Məhəmmədin Araz çayı üzərində saldığı məhşur Xudafərin (1027)körpüsü, Məsud Davud oğlunun tikdirdiyi Qiz qalası (Bakı), Gülüstan qalası (Şamaxı) ,Qəleybuğurd (Ağsuçayı sahilində) Əlıncəqala (Naxçıvan), Oğlan qala (Lerik), Mərdakan qalası və şimallı cənublu bütün Azərbaycan ərazisinə səpələnmiş onlarla orta əsr müdafiə tikintilərinin hər biri dünya memarlığının nadir inciləridir. (1 səh 25)

XV əsrdə Bakıda ucaldılan Azərbaycan memarlığının incisi saylan Şirvanşahlar sarayı kompleksinin binalarından biri divanxanadır. Burada məhkəmə işlərinə baxılır,əyanların yaradıcılığı keçirlirdi. Şirvanşahlar sarayı kompleksində qabarıq təsvirlərdən, yazılardan ibarət olan "Bayıl daşları "nın bədii tərtibatı, Şirvanşahlar dövlətinin hərbi qüdrətini, icdimai iqtisadi inkişafını göstərən Mərdakan qalasının kitabəsi vəs.diqqəti cəlb edir.(3,73) Qaraqoyunlu hökmdarı Cahanşahın əmri ilə 1465-ci ildə Təbrizdə "Göy məcid tikilmiş, onun divarları və üstü mərmərdən və mavi daşıdan hörülmüşdü. Ağqoyunlu hökmüdarı Yaqub padşah 1483 cü ildə Təbrizdə "Həşt behişt "adlanan böyük bir saray kompleksi tikdirmişdi. Bu sarayın kitabxanası , məcidi, 1000 çarpaylıq xəstəxanası, cıdır meydanı və xiyabanı vardı.(3,səh.467)

**Ədəbiyyat:**


1. Azərbaycanın tarixi abidələr. 291s. XV-XVI-əsrin birinci otuzilliyi
2. Qadın Com. Azərbaycanın bır neçə abidəsi haqqında.
3. Süleyman MəmmədovAzərbaycan tarixi. Bakı 2002 -291s
4. Süleyman Məmmədov Azərbaycan Tarixi. XV-XVI-əsrin birinci otuzilliyi 719s.


**Аида Мусейибова**

**История и памятники - достояние нашего народа**

***РЕЗЮМЕ***

Памятники, созданные людьми, и места, где они проживают, хотя и безмолвны, но своим существующим состоянием говорят нам о многом. Богатые возможности наблюдения и глаза эксперта могут считать много тайн с этих памятников. Памятники и исторические места своим видом всегда напоминают народам о своей сути, на что они способны, прививают чувства любви и преданности к родине.

Военные образования Армении, оккупировавшей 20 процентов наших территорий, жестоко разрушили наши памятники национальной культуры. На древних землях Азербайджана в Нагорном Карабахе и прилегающих к нему районах, оккупированных со стороны армянских террористов, остались 13 всемирно значимых - 6 архитектурных и 7 археологических, 292 государственно значимых, 330 местно значимых архитектурных, археологических, садовых, парков, монументальных и мемориальных памятников, а также 15 образцов декоративного искусства. Также на этих территориях под оккупацией врага находятся 22 музея, в которых собраны свыше 40 000 предметов, и сотни культурно-образовательных учреждений.

**Aida Museyibova**

**Our history and our monuments are the wealth of our people**

***SUMMARY***

Man-made monuments, though dwelling on the place where he lives, are telling us much about his current state. Rich observation ability and expert's eyes can read more secrets from these monuments. Monuments and historical places remind the peoples that they are capable of identifying and identifying their identity at every moment, with their own views, to instill in them a sense of patriotism and patriotism. Armenia's military units, occupying 20 percent of our territory, have brutally demolished our national culture monuments. There are 13 architectural and 7 archeological, 292 countries, 330 architectural, archaeological, garden, parks, monumental and memorial monuments, and 15 decorative art pieces in the ancient Azerbaijani lands occupied by Armenian terrorists in Nagorno-Karabakh and adjacent areas. There are also 22 museums and hundreds of cultural and educational institutions in which 40,000 people are gathered.

*Redaksiyaya daxil olma tarixi: 12.07.2018*
*Çapa qəbul olunma tarixi: 03.09.2018*

Tarix üzrə fəlsəfə doktoru, dosent **Hacıqədirli Aynur**
tərəfindən çapa tövsiyə olunmuşdur.